# ALİ HİSS - SEVGİ ZİDDİYYƏTLƏR MÜSTƏVİSİNDƏ



*Əli Rza XƏLƏFLİ*

***(Əvvəli ötən sayımızda)***

Yazıçı İsaxan İsaxanlının «Bir sevgi dastanı» povestini (müəllif bu əsərini hekayə adlandırır - Ə.X.) hələ oxumamışdan əvvəl gözlərimin diqqətilə adı üzərində düşündüm. Təbiidir ki, ad məni sevgi aləmini anlaya biləcəyim gücdə düşüncələrimi səfərbər elədi. Kimsəyə sirr deyil ki, sevgi aləminin o qədər gizlin tərəfləri var ki, bu, hər bir insanın özünün psixoloji düşüncələri ilə bağlı olduğundan elə bu dünyadakı insanların sayına bərabərdir. Ancaq hər halda biz konkret bir «dastan»dan, İlqar və Nananın mənəvi həyatını əks etdirən «Bir sevgi dastanı» hekayəsindən danışırıqsa, gərək mətləbdən çox da məhəbbətinə çatsa da, bilib ki, bundan sonra da bir mərhələ var. Və o mərhələni eşq kimi xarakterizə edib.

İndi qayıdaq İlqar və Nananın sevgisinə. Bu sevginin hansı mərtəbədə olduğunu, onun məhəbbətə keçdiyini, yaxud məhəbbətdən də ötə mərtəbəyə yüksələ biləcəyini bizə göstərən mənzərə varmı? «Bir sevgi dastanı» povestinin ayrı-ayrı məqamları üzərində düşünməklə biz iki gəncin psixoloji mühitindəki hərəkətin qanunauyğun ardıcıllığını dərk edə bilərik. İlk baxışdan burda nə var; iki gənc var. Bir-birini istəyən bu iki gənc öz sevgiləri uğrunda yalnız bir-birinə vəd verirlər. Və bu vəddə də sabitqədəm olmaq iddiasındadırlar. Amma onların mənəvi mühitlərindəki «mən»ləri sevginin məhəbbətə aparan, məhəbbətin daha yuxarılara doğru eşq mərtəbəsinə yüksələcəyinə inamları varmı? Ritorik sualdır və kimsədən bu suala cavab tələb olunmur. Yəni İlqara və Nanaya ayrı-ayrılıqda bu sual verilsəydi, bəlkə də, çox sərt cavab alınardı. Yəni onların bir-birinə istəyinə kim şübhə edə bilər? Axı həyatın onlar üçün qarşıya çıxardığı sınaqları hər biri asanlıqla və sözün həqiqi mənasında səmimiyyətlə dəf etmək iqtidarındadırlar. Ancaq həyat düsturlarla və demək, istəklərlə idarə olunmur. Bu istəklərlə - düsturlarla idarə olunmayan həyat özünə uyğun obrazlar tələb edir. Hələ ki, bizim gözlərimizin qabağında iki gənc var. Birinci növbədə, onlar gəncliyin ehtiraslı zamanını yaşayırlar. Onların öz aləmləri var və bu aləmdə onlar ətrafı görmürlər. Ətrafın görünmədiyi və ətrafın səni görmədiyi mühitdə ındadır. Başını Nananın dizinə qoymuş İlqar hansısa bir sakit guşə, bir ev, yaxud bir daldalanacaq tapa bilməzdimi? İlqar kimi bir gənc üçün, yəni az-çox maddi imkanı olan bir gənc üçün Nana ilə bir otaqda qalmaq elə də çətin bir problem deyildi. Amma Nananın İlqarın kürəyinə vurduğu yumuruqlar nə dərslə, nə dəftər-kitabla, nə də hər hansı bir mənəvi qadağa ilə bağlı deyil. Sadəcə o, İlqarın kürəyinə vurmaqla onu qəlbinin istəyinə doğru çağırır. İlqar isə o çağırışa cavab vermirdi. İlqar ölgün gənc deyil. Kifayət qədər həyat ehtirası olan gəncdir. Elə gəncdir ki, başqaları ona baxıb köks ötürür. Amma İlqar bütün varlığı ilə bağlandığı bu qızın sevgi cazibəsində şəhvani hisslərdən məhrumdur. O, artıq məhəbbət zamanını yaşayır. Məhəbbət zamanında olan insanlar öz zamanlarından fərqli bir dünyadadırlar.

Anam mənə «Qurbani», «Əsli Kərəm» nağıllarını (dastanlarını yox) danışanda son nəticədə onların nakamlığı ilə bağlı yekunu vuranda etiraz edirdim: axı niyə bəs evlənmirdilər, - soruşurdum. Anam deyirdi ki, Haqq aşiqləri «gül» olurlar. Mən mətnin məntiqindən çıxış edərək sual verirdim. Aldığım cavabın mənasını isə zaman-zaman dərk etməkdəydim. İndi İ.İsaxanlının «Bir sevgi dastanı» povestini oxuyanda həmin «gül» əhvalatı təzədən yaddaşıma gəldi. Demək, barmağımı dişlədim. Burada artıq İlqar gül mərhələsindədir. İlqarda sevgini dəyərsiz edə biləcək, sevgini ucuzlaşdıracaq şəhvani ehtiras qapadılmış vəziyyətdədir. Özü öz içindən bu hissə qadağa qoyub. Sanki öz iradəsilə Nananın ehtiras üçün yox, sevgi üçün, qəlbinin bir parçası olmaq üçün və qəlbinin hökmü ilə seçib. Sanki öz iradəsilə Nan-

tıq öz planını çəkir. İlqarın Nananın müəllimi ilə görüşü mənim yaddaşıma öz həyatımla bağlı maraqlı bir epizodu gətirdi. Mən də bir qız üçün və çox səmimi olaraq müəllimimə yaxınlaşıb ona kömək etməyini bildirdim. İlqarın Nananın fizika müəllliminə cəsarətlə yanaşması həmin dövrün səmimi təzahürüdür. Görünür, müəllim (müəllim gəncdir və təzəlikcə müəllimliyə başlayıb, onun gənc oğlanın başa düşməyini təbii qəbul etmək həmin dövrə xas xüsusiyyətdir) gənclik həyatının mənəvi tələbatını düzgün anlayır. Və özünə daxilən tapşırır ki, bu gəncin istəyini yerinə yetirmək lazımdır. Hərçənd ki, o, İlqara artıq heç bir vəd vermir. Burada həmin dövrün bu cür mənəvi keyfiyyətlərinin üstün tərəflərini yada salmaq, zənnimcə, çox yerinə düşür. İndiki kapital zamanı insanların bu cür incə hisslərini çox qəddarlıqla korşaldıb. Nə isə...

Əgər yazıçının fəhmindən, gücündən, obrazları ilə yazıçının biləşmə məqamından danışırıqsa, demək, mətnə istinad etməliyik: *«İlqar səhər saat 8-də Bakı Soveti metrosunun yaxınlığında yerləşən, xalq arasında Pasaj adlanan bazara gəldi. Ürəyindən keçən gülləri tapa bilmədiyindən gül satanlardan birinə yaxınlaşıb bir qədər söhbət etdikdən sonra 11 ədəd uzunluğu, təxminən 70-80 santimetr olan (Nana uzun sapaqlı gülləri sevirdi) qızılgüllər sifariş etdi. Səhəri gün onun gözlədiyindən də xeyli gözəl gül buketini görən İlqarın kefi kökəldi və o, gülləri götürüb birbaşa universitetə getdi. Bu gün Nana son imtahanı - fizika imtahanını verməli idi. İlqar tələsik addımlarla imtahan otağına tərəf*

uzaq düşməyək. Bu, ədəbi-tənqidi düşüncənin tələbidir.

Bəzən tələbdən kənara çıxmaq məqamları ilə də qarşılaşırıq. İki gəncin bir-birinə münasibəti onları cəzb edə bilər. İlkin mərhələdə bu, istəkdir. İstək hər bir ürəyin ilkin mənəvi tələbatıdır. Amma bu istəklər insan qəlbinin hisslərinin dərinliklərində özünə yer elədikcə sevgiyə çevrilir. Sevgi mənəvi tələbat olaraq tərəflərin varlığını o qədər işğal edir ki, artıq hər kəs öz iradəsinin ixtiyarından çıxır. İxtiyarsız olaraq yaranmış cazibə əhatəsində davranmalı olurlar. Yəni bu əhatədən kənara çıxmaq istəmirlər. Onlar üçün dünya bu əhatədir. Bu əhatənin gücü, cazibəsi kifayət qədər hökmlüdür. Və biz bunu məhəbbət adlandırırıq.

Məhəbbətlə mənəvi tələbat kamilliyə çatırmı? Nizamidə, Füzulidə, müəyyən mənada, Nəsimidə mənəvi tələbatın məhəbbətdən sonrakı mərhələsi başlayır və bunu bu gün mənəvi mühitimizin böyük Tanrı elçiləri hesab etdiyimiz və adlarını çəkdiyimiz sənətkarlar eşq adlandırırlar. Eşq artıq cazibənin son mərhələsidir və burada artıq adamlar yox, tərəflərin birlikdə qovuşaraq böyük vəhdətə uçuşunu görürük. Bu, kütləvi şəkildə tərənnüm etdiyimiz sevginin ali məqamıdır, məhəbbət məqamıdır və heç şübhəsiz, məhəbbətdən sonrakı məqamıdır. Yəni eşqdir. Nizami də hər kəsin bu gün əzbər bildiyi düsturu elə bu məqam üçün deyib:

Eşqdir mehrabı uca göylərin,
Eşqsiz ey dünya, nədir dəyərin?

Görünür, Nizami özünün mənəvi mühitində öz Afaqına olan sevgisində san öz hisslərinin əsiri olur. Və kimsə bu əsirlikdə insanı qınaya bilməz.

Hekayənin bir məqamı var: Dağüstü parkda İlqarla Nana ikisi birlikdədir. Kimsəsizlikdir, bir anlığa gözlərimizin önünə gətirək. Həyatı bütün çılğınlığı ilə ruhlarında, varlıqlarında daşıyan gənclərə hansı əxlaq qanunları ilə qadağa qoymaq olar?

Yazıçı bu məqamı son dərəcə sakit, təbii bir axarla təsvir edir. Eelə bil ki, yazının təsvir üslubunda müəllif qəsdən gənclərin damarlarında qaynayan qanın hərəkətini özünün yaradıcılıq laboratoriyasında soyudaraq ötürür. Bəlkə, həmin məqamı yazıçının təsvirində olduğu kimi gözlərimizin önünə gətirək: *«Dördüncü kursun yaz imtahan sessiyası başa çatmaqda idi. İlqarla Nana Dağüstü parkda, sakit bir tərəfdə, yaşıllığın üzərində oturub söhbət edirdilər. İlqar başını Nananın dizləri üstünə qoyub uzanmış, Nana isə onun uzun, qara saçlarını tumarlayır, İlqarın sevgidolu sözlərindən xumarlanırdı. Bir az şirin-şirin söhbət etdikdən sonra İlqar: İmtahanları necə, verə bilirsənmi? - deyə soruşdu. Nana: "Bütün imtahanları vermişəm, amma fizika imtahanından bir az qorxuram, deyəsən yaxşı hazırlaşa bilməmişəm". Sonra da dərhal: Bunun da ən böyük günahkarı sənsən, - deyib yumruğunu sıxdı zarafatyana bir neçə dəfə İlqarın kürəyinə vurdu. Onun bu hərəkətlərindən böyük zövq alan İlqar ürəyində bir planı varmış kimi: Narahat olma, mənim eşqim səni kəsilməyə qoymaz, - deyib onu qucaqlayaraq sinəsinə sıxdı».* Bu mətn bizə nə deyir? Bu mətn bizə diktə edir ki, artıq Nana tamamilə İlqarın ixtiyarındadır.

Bəzən belə deyirlər, qadınlar... qızlar ömürləri boyu onları fədakarlıqla sevə biləcək bir kimsəni axtarırlar. Nizaminin zamanında bu fədakarlıq Fərhad üçün dağı çapmaq idi. Füzulinin zamanında bu fədakarlıq Leyli eşqilə maddi varlığından əl çəkib yalnız öz idealının obrazı ilə səhrada yaşamaq mahiyyətində görünürdü. Başqa misallar da çəkmək olar. Amma XX əsrin 70-ci illəri üçün əhalinin çox böyük əksəriyyətinə görə, əmin-aman bir mühit idi və kimsədən öz sevgisi üçün nə çöllərə düşmək, nə dağ yarmaq, nə də qeyri-nəsə ummağa lüzum yox idi. Amma çox həyati detallar var idi ki, həmin detallarla gənclərin bir-birinə olan münasibətindəki fədakarlıq motivləri üzə çıxa bilərdi.

Povestin mahiyyətini ifadə edə bilən, yəni əsərin qəhrəmanının fədakarlığını üzə çıxara biləcək məqamlarda mətnin özünə istinad etmək ən düzgün çıxış yoludur. Doğrudur, bizi qınaya bilərlər ki, əsərdən gətirilmiş parça ilə mətnə bir qədər artıq həcm veririk. Amma belə deyil. XX əsrin 70-ci illərindəki dünyası aydan arı olan bir gəncin fədakarlıq meydanı axtardığını və özünü sübut etmək, öz sevgisi naminə necə cəsarət kəsb etdiyini göstərmək üçün mətn ən yaxşı istinaddır.

İlqar öz zamanına uyğun öz meydanının döyüşçüsüdür. Sevgilisini danışdırır, onun çətinliyini hardan, nədən narahat olduğunu, nigaran qaldığını öyrənir. Ancaq ona vəd vermədən ar-

*getdi. Elə bu an Nana çıxdı, "5" deyib sevinərək rəfiqələrinə sarıldı. İlqar özünü yetirdi. Nananın rəfiqələrindən biri - Rəna İlqarın əlindəki gülləri görüb: Nə gözəl güllərdir, mən də bu güllərdən istəyirdim, - deyə, gülümsəyərək İlqara baxdı. Bu zaman Gülya: İştahan pis deyil, lakin belə güllərin olması üçün əvvəlcə belə bir İlqarın olmalıdır, səndə də ki, hardadır elə bəxt, - dedi və bütün qızlar hündürdən gülüşdülər. İlqar gülləri Nanaya verdi. Nana çox sevdiyi qızılgüllərin bihuşedici qoxusunu nəzərəçarpacaq bir ada ilə içinə çəkdi (bu onun İlqara özünəməxsus minnətdarlığı idi) və bir qədər maraq içində dedi: "Bilmirəm, niyə Fərrux müəllim məndən heç nə soruşmadı, zaçot kitabçamı alıb qiymətimi yazdı».* İlk baxışdan İlqar üçün bütün yollar açıqdır. Onun qarşısını kəsəcək elə manеə yoxdur. Ən azı Nana İlqarın ona münasibətini aydınlaşdıracaq, dəqiqləşdirəcək, sağlam, sədaqətli obrazını yaradacaq təsvirləri öz ailəsinə çatdırmalıydı. Başa düşmək olar: Nana bu münasibətləri təfərrüatları ilə çatdırmaya da bilərdi. Ancaq qətiyyətinə nə söz? O, öz qətiyyətilə anasına birinci növbədə, sonra da atasına daxilindən gələn sevginin tələbatı və gücü ilə həqiqəti olduğu kimi deməyə borcluydu. Deməyib, daha doğrusu, deyib, ancaq qədərincə deməyib. Qətiyyətini kifayət qədər çatdıra bilməyib. Bu da onun qız zəifliyinin, qız iradəsinin dərəcəsi ilə də hesablana bilərdi.

***(Davamı 9-cu səhifədə)***

# ALİ HİSS - SEVGİ ZİDDİYYƏTLƏR MÜSTƏVİSİNDƏ

*(Əvvəli 8-ci səhifədə)*

Ancaq burada başqa bir məqam var. Nana İlqarın onların evinə elçi gəlməsini istəməməsi məqamını yaddan çıxara bilmərik. Və burada artıq real həyati tələbat kimi Nananın güclü, İlqarın zəif olduğu məqam üzə çıxır.

Həqiqi sevənlərin mühitində (anamın "haqq aşiqləri gül olurlar" sözü bir də yadıma düşür) İlqarın davranışı tam təbiidir. İndiyə qədər İlqar Nanaya ehtiras gücü ilə yox, sevgi gücü ilə yanaşıb. İlqarın içindəki hisslər onu məhəbbət aləminə, qarşısıalınmaz bir mühitə tərəf çəkir. Oradan da böyük eşqə doğru yol açıla bilər. Bütün bunların hamısı hələ ki, İlqarın içindəki duyğuların saflığı ilə görünür. Həyat bu saflığı qəbul edə bilirmi? Bu, ritorik sualdır. Nə həyatın qarşısında belə bir sualı qoyan var, nə də həyatın konkret dili-ağzı yoxdur ki, cavab versin. Əlbəttə, bu suala ən dəqiq cavabı biz həyatda yaşadığımız, gördüyümüz, şahidi olduğumuz hadisələrlə alırıq. Çünki özümüzün şahidi olduğumuz hadisələr, həm də bizim həyatımızın nəinki məzmununu təyin edir, eyni zamanda bizim həyatımızın mənasını ifadə edir.

"Bizim həyatımız..." Bu, artıq əsərin prinsipcə bölgü olaraq qarşımıza çıxan tələbidir. Nananın atası Sergey Rodionoviçin heç bizim ağlımıza gəlməyən, artıq bizim yaddaşımızdan silinmiş olan bölgülərin təzədən yaddaşımıza gətirməsidir.

İlqar Nanagilin qapısını açana qədər hansı «uçurumla» qarşılaşacağını heç ağlına da gətirmirdi. Doğrudur, Nana ona erməni qızının nə qədər təhlükəli olduğunu ötəri də olsa xatırlatmışdı. Və müəllif də bu məqamı İlqarın başı daşa dəyəndən sonra xəyalında canlandıraraq düşündükləri ilə yazıya gətirmişdi. Amma biz bir qədər qabağa keçdik. İndi İlqar qapını açıb və o, ilk psixoloji zərbəni alıb. Yəni Nana onun gətirdiyi gülləri almadan üzünü döndərib geriyə dönüb, otağına qaçır. İlqar gülləri Nananın anasına verməli olur. Atası ilə qarşılaşması isə artıq aradakı uçurumun sədləri haqqında kifayət qədər təsəvvür yaradır: *«Mən sevginin qətiyyən əleyhinə deyiləm. Əleyhinə olduğum başqa bir şey var. Sənin ailən azərbaycanlı, biz isə erməni ailəsiyik. Bizim dilimiz başqa, dinimiz başqa, adətlərimiz fərqlidir. Siz heç bir zaman xoşbəxt ola bilməzsiniz. Bəlkə də dediklərimi qəbul etmək istəməyəcəksən, lakin bu bir həqiqətdir. Sən o nağıllara, əfsanələrə aldanma, həyat daha konkret, daha sərtdir. Mən hər şeyi bilə-bilə qızımın həyatını təhlükəyə ata bilmərəm"*. Bu, açıq bir döyüşdür. Tərəflərin hansı mənəvi prinsiplərə, hansı mənəvi əxlaqi normalara güvəndiyinin açıq görüntüsüdür. Nə qədər acı olsa da, XXI əsrin 20-ci ilinin zirvəsindən baxıb XX əsrin 70-80-ci illərindəki azərbaycanlı obrazının nə qədər sadəlöhv olduğunu görməmək mümkün deyil.

Sergey Rodionoviç erməni milliyyətindən olaraq erməniliyin mahiyyətini bütün insani dəyərlərin hamısından yuxarıda tutur. Onun üçün ermənilik bütün insani hisslərin hamısından üstündür. Burada «Mahmud və Məryəm» filminin qabarıq görünən epizodları gözlərmizin önünə gəlir. Məryəm necə müti olaraq atasının arxasınca yeriyir. Halbuki o, bütün varlığı ilə Mahmudun kim olduğunu, onu necə sevdiyini, ona necə bağlandığını yaxşı bilir. Ancaq onun içindən sevgi güc olaraq özünü göstərə bilmir. Dini, milli ayrıseçkiliyin təzyiqi altında özünü heç bir cəhətdən ifadə edə bilmir. Necə də bənzər mənzərədir. Sergey Rodionoviçin sözləri sanki Məryəmin atasının düşüncələridir: *«Sergey Radionoviç bu son sözlərini çox konkret və sərt şəkildə desə də, İlqar özünə inamlı şəkildə dilləndi: "Mən sizin düşüncələrinizə hörmətlə yanaşıram, narahatçılığınızı da başa düşürəm. Dil, din, adət... bunların hamısını insanlar düşünüb yaradıblar, məhəbbət isə Tanrı tərəfindən verilmiş hissdir. Tanrı da ki, birdir. O, bütün xalqların Tanrısıdır, sizin də, bizim də».* Nə qədər qəddar, nə qədər bir pərdə yox, bütövlükdə bir toplumun mövqeyini ifadə edən düşüncələrdir. Bu düşüncələr sözün həqiqi mənasında içini kin, küdurət, qəzəb çulğamış olan və yalnız keçmişlə nəfəs alan insanın düşüncələridir. Qəddardır, qərəzlidir, ancaq realdır, həyatda yaşayan insandır. Qarşı tərəfin unutqanlığını, yaddaşsızlığını ona bağışlamayan tərəfin timsalıdır. Və onun özündə nə qədər qeyri-müəyyən görünsə də özünün milli mənsubiyyətinə kin sarıdan və bu kini qoruyaraq yaddaşa güvənc sarıdan özünü güclü bilən rəqibin düşüncələridir. Bəli, Sergey Rodionoviç artıq İlqarın sağlam sevgisinin qarşısında gözəgörünməz rəqibin təmsilçisidir. Bu rəqibin insan cildində görünən formasıdır. Yəni dini, milli ayrıseçkiliyin ədavət şəklində görünən formasıdır. İlqar belə bir rəqiblə qarşılaşacağını qətiyyən gözləmirdi.

İlqar qarşılaşdığı sərt və hisslərsiz, duyğularsız, gözünü siyasətin örtdüyü milli, dini ayrıseçkiliyin pərdələdiyi insan adlı divarla qarşılaşıb. Ancaq özünü gücsüz hesab etmir. Çünki onun mənəvi mühitində böyük sevgi alovu var. Bu od, bu alov ona güc verir ki, sevdiyi qızın evində onun atası ilə üzbəüz, açıq və aydın danışa bilsin. İlqarın düşüncələrini müəllif son dərəcə lirik-psixoloji aspektdə və həm də zaman-zaman unudulmayacaq duyğularla verə bilib: *«Dil başqa, din başqa, adətlər fərqli olsa da, bütün insanlar eyni səma altında, eyni məqsədlə - xoşbəxt olmaq üçün yaşayırlar, məqsədlərinə çatmaq üçün doğru hesab etdikləri hər şey uğrunda eyni duyğularla mübarizə aparırlar. Biz Nana ilə bir-birimizi sevirik, qəlbimiz eyni hisslərlə vurur, eyni arzularla yaşayırıq. Hansı adətlə, hansı qayda-qanunla evlənməyin də mənim üçün heç bir əhəmiyyəti yoxdur. Təki sevdiyimə qovuşum».* Hər kəsə elə gələ bilər ki, İlqarın bu səmimi duyğulanmaları - qəlbindən gələn səsi sanki bütün dünyaya üz tutaraq varlığının manifesti kimi söylədiyi bu qısa monoloq qarşısında olan hər hansı bir manecəni dağıda biləcək. Ancaq İlqar unudur ki, bu manecə sadəcə, cansız divar deyil, daş deyil. Bu manecə ermənilik psijologiyası ilə zəhərlənmiş olan insanın müqavimətidir. Əgər bütün müqəddəs hissləri ayağının altına ataraq tapdalamağa hazır olan bir kimsəni insan hesab etmək olarsa, bəli, insanın...

...Doğrudur, əsərdə müəyyən yumşalma məqamları da var. Nananın anasının qızının hisslərinə şərik olması göstərir ki, hələ də az-çox insani hisslərdən imtina etməyən fərdlər də var. Ancaq o da qədərincə qətiyyətli deyil. O, əri Sergey Rodionoviçin sərt dini, milli qalxanını yenmək gücündə deyil. O, İlqarı mənəvi oğurluğa doğru yönəldir. Buyur, götürüb qaça bilərsən. - Svetlana Mixaylovnanın sözlərindən bu məna çıxır. Ancaq İlqar bu yolun adamı deyil. Çünki İlqar real dünyanın adamı deyil. Əgər real dünyanın adamı olsaydı, onda gərək onun Nananın bətnində övladı olaydı. Bu yol onun üçün açıq idi. İlqar sevənlərin gül olduğu haqqındakı «əfsanənin» daşıyıcısıdır. Ona görə də öz sevgisinə, və öz sevgilisinə qarşı qətiyyən xəyanət etmək, şəhvət və ehtiras qulu olaraq qəhrəman obrazı qazanmaq niyyətində olmayıb.

Beləcə, hadisələr ilkin toqquşmalardan sonra qırılıb-tökülən sahil dalğaları kimi ilkin məcraya qayıdır. İlqar sarsılır, bəlkə də, yazıçı bu sarsılma məqamını İlqarı təzədən sınaqdan keçirmək üçün bir mərhələ olaraq göstərir. Amma bu mərhələ Nana üçün də daha əsaslı sınaq olur.

Nananın anası İlqara qızı ilə evlənməyin xeyir-duasını verir. Ancaq hadisələrin gedişi göstərir ki, Nana birinci sınaqdan çıxa bilmədiyi kimi (atası Nanaya demişdi ki, ya bu dəqiqə bu oğlana yox deməlisən, ya da onunla çıxıb getməlisən. Nana isə heç bir cavab verməyib o biri otağa qaçmışdı) öz anasının xeyir-duasından sonrakı mərhələdə də mövqeyini uduzur, nişanlanmağa razılıq verir. Onun İlqarı gözləməyə gücü çatmır. Burada bir mətləbin üzərindən hər kəsə aydın olmayan bir pərdəni götürmək lazımdır: Əslində, get-gedə daha çox aydın olur ki, Nananın özü də həmin Sergey Rodionoviçin tapındığı dəyərləri keçmək gücündə deyil. Həqiqətən onun İlqarı sevməyinə, İlqarı qəbul etməyinə, hətta nikahdan əvvəl onunla haracan desən, getməyinə hazır olsa da, real, rəsmi, açıq-aşkar mövqedə Sergey Rodionoviçin tapındığı dəyərləri adlamaq gücündə deyil. Görünür, Nana həqiqətən böyük sevgi adlanan gücün mərhələsinə çatmayıb. O, bütün sədləri dağıtmaq gücündə olan məhəbbətin nəyə qadir olduğunu bilmir. Ona görə ki, o, bu məhəbbət həddinə hələ gəlib çatmayıb.

Hadisələr nə qədər sürətlə cərəyan etsə də İlqarın mənəvi mühitində bu proses çox ağrılı və ləng keçir. Bir tərəfdən gələcək qayınanası ola biləcək Svetlana Mixaylovnanın xeyir-dua mövqeyi nə qədər onun qəlbində işıq yandırmışdısa, bir o qədər təzə aldığı xəbərlər onun varlığını qılınc kimi kəsib doğrayır.

Müəyyən məqamlarda İlqarın daxilindən gələn istəyin tələbi ilə Nananın arxasınca getməsini onun Nananın arxasınca sürünməyi kimi qəbul etmək olmaz. İlqar kifayət qədər qürurlu gəncdir. Milli hisslərini, şəxsiyyət olaraq duyğularını heç nəyə, heç kimə, və heç nəyə güzəştə gedən deyil. Ancaq o, kifayət qədər qüruru ilə öz sevgisini ucaltmağı, sevgisinin nəyə qadir olduğunu göstərmək gücündədir. Ona görə də son ana qədər Nana ilə münasibətini aydınlaşdırmaqdan çox sevgisinin mənəvi tələbat olaraq qələbəsinə nail olmaq istəyir. Çünki bu sevgi onun üçün həyati normadır, mənəvi tələbatdır, yüksək istəkdir. Hələ də İlqara çatmır ki, onları ayıran Sergey Rodionoviçin öz içində qoruyub saxladığı tarixi ədavətdir. Nananın atası bu ədavətin əsiridir. Nananın özü isə atasının əsiri. Yumurtanın içərisində olan rüşeym böyüyüb canlanırsa, o, öz qabığını yarıb onun içindən çıxmalıdır. Nana məhz bu qabığı yarmaq gücündə deyil. Hətta növbəti dialoq belə bu məqamda İlqarın haqlı olduğunu sübut edir: *"Qapının zəngini çaldı. Nana açdı. Evdə ondan başqa kimsə yox idi. Nana İlqarı ilk dəfə idi ki, bu halda görürdü. Həmişə özünə xüsusi fikir verən, şax duruşu, səliqəli geyimi ilə hamının diqqətini cəlb edən İlqar sanki şaxta vurub qurumuş cansız bir ağacı xatırladırdı. Nana İlqarın hər şeydən xəbəri olduğunu anladı. Heç nə deməyib, üzünü yana çevirdi. İlqar içəri girib qapını örtdü: Deyilənlər doğrudurmu? Bunu sənin dilindən eşitməyə gəlmişəm, - deyə Nanadan cavab istədi.*

*- Mən artıq dözə bilmirəm. Məni başa düş, İlqar!*

*- Dözə bilmədiyin üçün də xəyanət etdin, başqası ilə nişanlanmağa razılıq verdin, bunumu başa düşüm?*

*- Dediyin kimi deyil...*

*- Bəs necədir? Bunun başqa adını var?*

*- Mən ailəmdən keçə bilmirəm, İlqar.*

*- Deməli, sən seçimini etdin - ailən və yeni sevgilin!*

*- Sözlərinə fikir ver, İlqar! Mən həyatımda yalnız ...*

*- Sizə xoşbəxtlik arzulayıram.*

*- İlqar...*

*İlqar qapını çırpıb çıxdı. Tənha ağacın altına gəldi. Özünü nə qədər ələ almaq istəsə də, bacarmadı, onu dəli bir ağlamaq tutdu və sanki, bir az rahatlayan kimi oldu. Uzun müddət orda tək-tənha oturduqdan sonra evə qayıtdı. Evdəkilər heç nə başa düşməsinlər deyə özünü ələ aldı və yorğun olduğunu söyləyib, birbaşa yatmağa getdi. Lakin nə qədər yatmağa çalışsa da gözlərinə yuxu getmirdi"*. İnsanın təbiət etibarilə öz istəyinə sədaqəti, hətta bu yolda ən sarsıdıcı məqamlarla qarşılaşsa belə, dözümü üstün keyfiyyətdir. Bəzən yazıçı özü bilmədən belə qəhrəmanın iradəsinə tabe olur, onun arxasınca irəliləyir. ilhamın gücü ilə təsvirlər onu çəkib aparır. Və son nəticədə yazıçı öz qəhrəmanını daha uca, daha ali görür. İlqarın zamanı üçün Qladiator döyüşünə gərək yox. İlqar daxilən öz istəyində sabitqədəm olduğu üçün Qladiatordur. O, öz istəyində axıracan israrlıdır. Sonuncu dəfə örtdüyü qapının arxasında qalan dunyadan da asanlıqla qopa bilmir.

Sabah necə açılacaq? Həyat onun üzünə güləcəkmi? O, ümumiyyətlə, öz həyatının mahiyyətini təzədən yeni istəkləri ilə qura biləcəkmi? - Bütün bunları daha aydın bilmək üçün yazıçının təhkiyəsini izləmək gərəkdir.

Bütün həqiqətlər həyatdadır. Bizim düşüncəmizdə olan həqiqətlər isə həyatdan olan həqiqətlərin yalnız solğun təsvirləridir.

**(Davamı var)**